# 2026

# Xasməmmədov Arbitraj Müsabiqəsi

# Memorandum Bələdçisi

BAKI DÖVLƏT UNİVERSİTETİ MƏHKƏMƏ MÜSABİQƏ CƏMİYYƏTİ TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR

Veb-sayt: bsumootcourtsociety.org
E-poçt: info@bsumootcourtsociety.org

Bu Bələdçinin əsas məqsədi Xasməmmədov Arbitraj Müsabiqəsi (bundan sonra – Müsabiqə) iştirakçılarına Müsabiqənin Yazılı mərhələsində tərəflərin yazılı mülahizələrinin (bundan sonra – Memorandumlarının) hazırlanması ilə bağlı bəzi məqamları izah etməkdir. Bələdçidə əvvəlki illərin uğurlu Memorandumlardan nümunələr daxil edilmişdir. Bu Bələdçi Müsabiqənin Qaydalarına əsasən hazırlanmışdır və burada qeyd olunmayan məsələlər Qaydalara uyğun tənzimlənməlidir.

## Mündəricat

I. Ümumi Tələblər ... 3
II. Faktlardan və hüquqdan istifadə ... 3
III. Memorandumun hissələri ... 4
A. Üz səhifəsi ... 4
B. Mündəricat ... 5
C. İstifadə olunmuş mənbələr ... 6
D. Faktların təqdimatı ... 7
E. Arqumentlərin xülasəsi ... 8
F. Arqumentlər ... 9
H. Arbitraja müraciət ... 10

# I. Ümumi Tələblər

1. Memorandum bütün hissələr daxil olmaqla maksimum 7000 sözdən ibarət ola bilər. Memorandumda istifadə olunan yazı şrifti Times New Roman, yazının ölçüsü 12 olmalıdır. Başlıqların yazıdan fərqləndirilməsi üçün onlar daha böyük ölçüdə yazıla bilər.
2. İştirakçı komanda Memorandumları Microsoft Word (*.docx) formatında Müsabiqə veb-saytındakı komanda kabineti vasitəsilə təqdim etməlidir. Memorandumlar lazımi qaydada adlandırılaraq təqdim edilməlidir. Belə ki, fayl adı komanda nömrəsindən və Memorandumun İddiaçı və ya Cavabdehə aid olmasını göstərmək üçün müvafiq olaraq "İ" və ya "C" hərflərindən ibarət olur (məsələn, 3İ və ya 3C).
3. Bələdçidə "**Memorandumun hissələri**" başlığı altında göstərilən hissələrin Memorandumda göstərilməsi mütləqdir.

# II. Faktlardan və hüquqdan istifadə

4. İşdəki faktlardan hüququ həmin faktlara tətbiq edərək yararlanmağa çalışın. Faktlardan yararlanmaq heç bir halda onların təhrif olunması kimi başa düşülməməlidir. İşin faktları qətidir və komandalar bunları dəyişilməz olaraq qəbul etməlidirlər.
5. Müsabiqə İşində həm İddiaçı, həm də Cavabdehin xeyrinə istifadə edilə biləcək faktlar mövcuddur. Tərəflərdən birinin lehinə olan fakta qarşı istifadə ediləcək digər faktın həmin faktın yanında əks olunması mütləq deyil. Belə ki, həmin fakt Müsabiqə İşinin daxilində başqa bir hissədə qeyd oluna bilər.
6. Aşağıdakı nümunədə Müsabiqə İşindən olan iki fərqli faktın təqdimatı ilə tanış ola bilərsiniz

10 mart 2022-ci il tarixində Cavabdeh İddiaçıya rəsmi məktub yazaraq 6 mart 2022-ci il tarixində Rusiya Federasiyasına tətbiq edilmiş sanksiyalara görə artıq oradan taxıl ixrac edə bilmədiyini, bu səbəblə də müqavilə üzrə öhdəliklərini icra edə bilməyəcəyini və Müqaviləyə dərhal xitam verdiklərini bildirmişdir.

Müqaviləyə əsasən Müqavilənin ləğv edilməsi tərəfləri ləğvetmə anınadək Müqavilə üzrə yerinə yetirməli olduqları öhdəliklərin icrasından azad etmir. Buna baxmayaraq, Cavabdeh öz öhdəliklərini pozmuş və nəticədə, İddiaçı taxılı başqa ixracatçılardan almaq məcburiyyətində qalmışdır. Nəticədə, İddiaçıya 1 000 000 ABŞ dolları dəyərində zərər dəymişdir.

# III. Memorandumun hissələri

Memorandumun aşağıdakı hər bir hissəsi yeni səhifədən başlamalıdır.

## A. Üz səhifəsi

7. Üz səhifəsi Qaydalara müvafiq olaraq Memoranduma daxil edilməli olan hissələrdən ibarətdir.

**XASMƏMMƏDOV ARBİTRAJ MƏRKƏZİ**

**İDDİAÇI MEMORANDUMU**
**İDDİAÇI TƏRƏF "OMEX ENERGY BVI"**
**ŞİRKƏTİ**

**8İ**
**05.04.2025**

## B. Mündəricat

8. Mündəricatın memoranduma daha rahat şəkildə daxil edilməsi və lazım olduğu təqdirdə avtomatik yenilənməsi üçün *Microsoft Word* və ya başqa mətn proqramının üslub və başlıq *(heading)* funksiyalarından istifadə etmək tövsiyə olunur:




9. Belə ki, proqram başlıq kimi işarələnmiş mətnləri mündəricat formasında indeksləyə bilir. *Microsoft Word* proqramında bunun üçün aşağıdakı hissədən istifadə etmək lazımdır:



10. Nümunə mündəricat bölməsi aşağıdakı kimidir:

**MÜNDƏRİCAT**

**Faktların təqdimatı ..................................................................5**

**Arqumentlərin xülasəsi ...........................................................6**

**Arqumentlər ..............................................................................7**

**I. Mübahisəyə yalnız Bakı şəhərində yerləşən Arbitrajda baxıla bilər. ..............................................................................7**

**A. Sazişdəki arbitraj qeyd-şərti və tənzimləyici qanunlar Tribunalı lazımı səlahiyyətlə təmin edir.................................................... 8**

**B. Arbitraj qeyd-şərti Arkadiya Respublikasının suveren immunitetindən istifadə imkanlarını məhdudlaşdırır..........................................10**

**II. Cavabdeh Sazişin tərkib hissəsi kimi qəbul edilən və HPBS-nin icrası zamanı tətbiq olunmalı olan müddəalara zidd davranmışdır.............11**

**A. Cavabdehin sonrakı mövqedə dəyişiklik etməsi estoppel prinsipinə zidd olaraq İddiaçı üçün ədalətsiz nəticələr doğurmuş və iqtisadi mənafeyinə ciddi ziyan vurmuşdur.................................................13**

**B. Çətinlik prinsipinə istinadən layihənin gözlənilməz dəyişikliklərə uyğunlaşmasını təmin etmək üçün İddiaçının "İmplied terms" təklifi Cavabdeh tərəfindən qəbul edilməmişdir.**

11. Mündəricatı Memorandumu tamamladıqdan sonra yeniləmək lazımdır. Bunun üçün *Word*-də alətlər panelindəki *References* bölməsindən *Update table* seçimini klikləmək lazımdır. Aşağıdakı şəklə diqqət yetirin:




## C. İstifadə olunmuş mənbələr

12. Burada Memorandumda istifadə etdiyiniz qanunvericilik, məhkəmə işləri, doktrinal mənbələri və istifadə etdiyiniz digər etibarlı mənbələri qeyd edirsiniz. Mənbələrin adları tam və anlaşıqlı olmalıdır. Mənbələrin etibarlılığı və

yazılma qaydası barədə məlumat üçün Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalının Məqalə Tələblərindəki qaydalara baxmağınız tövsiyə olunur.

13. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

**Milli mənbələr**

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, 1999 (5.3; 16.1; 21; 390.1; 419.2; 421.1; 422.1; 425.2; 443.1; 443.4: 448.4; 560.2; 560.3.4; 1097)
2. "Arbitraj haqqında" AR Qanunu, 2023 mad.17.1
3. "Xarici investiyaların qorunması haqqında"AR Qanunu, 1992 (9: 13; 14)

**Beynəlxalq mənbələr**

1. "Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi haqqında" BMT-nin 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyası (2.1; 2.2; 2.3)
2. "Müqavilələr hüququ haqqında" Vyana Konvensiyası, 1969 mad.31
3. "Enerji Xartiyası Müqaviləsi", mad.10
4. "Dövlətlərin və Onların Əmlakının Yurisdiksiya İmmunitetinə dair" Birləşmiş Millətlər Konvensiyası mad.17

## D. Faktların təqdimatı

14. Bu hissədə Memorandumda istifadə edəcəyiniz, yəni hüququ tətbiq edəcəyiniz faktlar lakonik şəkildə xronoloji ardıcıllıqla təqdim edilir.

15. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

1. İddiaçı Omex Energy BVI və Cavabdeh Arkadiya Respublikasının Dövlət Enerji Şirkəti arasında 1 avqust 2015-ci ildə Savalan yatağının bərpası üçün "İyirmi beş illik bərpa və hasilatın pay bölgüsünə dair" (HPBS) Saziş imzalanmışdır.
2. HPBS çərçivəsində İddiaçı Yatağın modernləşdirilməsi, istehsal həcminin artırılması və əhəmiyyətli istehsal hədəflərinə çatmaqla bağlı öhdəliklər qəbul etmişdir. Cavabdeh isə öz növbəsində İddiaçıya yataq, mövcud quyular, qurğular və avadanlıqlar üzərində müstəsna hüquqlar vermişdir.
3. Razılaşdırılmış plana uyğun olaraq işləri görməyə başlayan İddiaçı obyektiv səbəblərdən HPBS üzrə nəzərdə tutulan hədəfə tam çata bilməsə də, Sazişin əsas məqsədini rəhbər götürməklə hasilatın azalmasının qarşısı alınmış və əhəmiyyətli artıma nail olunmuşdur.
4. İddiaçı planda nəzərdə tutulan proqnozlara çatsa da, sonradan yaranan bir sıra gözlənilməz problemlər layihənin gəlirliliyinə kəskin təsir etmişdir. Həmçinin Arkadiya qanunvericiliyində ekoloji qaydaların sərtləşdirilməsi, ixtisaslı işçi qüvvəsi üçün minimal kvotanın artırılması, hasilat üsulları üçün mürəkkəb icazə prosedurlarının tətbiqi və "Argus" sisteminin köhnəlmiş yataq infrastrukturuna inteqrasiyası İddiaçının xərclərini xeyli artırmışdır. İddiaçının yaranmış 20 milyon dollarlıq xərcini Cavabdeh ödəməkdən imtina etmişdir.........

## E. Arqumentlərin xülasəsi

16. Bu hissə Memorandumda təqdim olunacaq arqumentlər üçün giriş xarakteri daşıyır. Xülasədə qeyd olunan arqumentlərin hər biri "Arqumentlər" hissəsində aydınlaşdırılır və əsaslandırılır.

17. Nümunə üçün aşağıdakı mətnə diqqət yetirin:

I. Mübahisəyə yalnız Bakı şəhərində yerləşən arbitrajda baxıla bilər.
II. Cavabdeh Sazişin tərkib hissəsi olan və HBPS-nin icrasında tətbiq edilməli olan müddəalara zidd davranmışdır.
III. Pandemiyanın fors-major hal hesab edilmədən iddiaçının öhdəliklərini yerinə yetirməməsinə görə Sazişin birtərəfli ləğvi hüquqaziddir.
IV. İddiaçı tərəfindən əhəmiyyətli pozuntu törədilmədiyi üçün Sazişin birtərəfli ləğvi hüquqaziddir.
V. Sazişin birtərəfli ləğvi və Cavabdehin vicdansız davranışları İddiaçının sərmayəsinin dolayı müsadirəsinə səbəb olmuşdur.

## F. Arqumentlər

18. Bu hissə Memorandumun ən əsas hissəsidir. Burada Müsabiqə İşində qoyulmuş məsələlər, yəni "Arqumentlərin xülasəsi" hissəsində qeyd olunan başlıqları əhatə edən məsələlər əsaslandırılır.

19. Hüquqi əsaslandırma metodu kimi IRAC ***(I – Issue, R – Rule, A – Application, C – Conclusion)*** metodundan istifadə oluna bilər. Bu metoddan istifadə zamanı barəsində mövqe irəli sürülməli olan məsələ ***(issue)*** qeyd edilir. Daha sonra tətbiq olunacaq qaydalar ***(rule)*** sıralanır və ehtiyac olarsa, qaydaların izah və təfsiri təqdim olunur. Təqdim olunmuş qayda və onun izahı faktlara tətbiq ***(application)*** olunur. Yekunda, adətən bir cümlə ilə əsaslandırmanın məntiqi nəticəsi ***(conclusion)*** təqdim edilir.

**Qeyd:** IRAC metodunun alternativ variantı kimi CREAC **(C – Conclusion, R – Rule, E - Explanation, A – Application, C – Conclusion)** metodundan da istifadə oluna bilər.

20. Hər başlıqda müvafiq qaydanın (rule) yalnız bir dəfə tətbiq edilməsi mütləq deyildir. Bir başlıq və ya məsələ üzrə müxtəlif hüquq qaydaları sistemli şəkildə izah, təfsir və tətbiq edilə bilər. Daha rahat başa düşülməsi üçün bir məsələnin əsaslandırılması ayrı-ayrı paraqraflara da bölünə bilər.

21. Nümunə üçün aşağıdakı sadə əsaslandırma mətninə baxa bilərsiniz:

> Cavabdeh öz vəzifələrini yerinə yetirməyərək müqavilə üzrə nəzərdə tutulmuş öhdəlikləri icra etmədiyi üçün maddi məsuliyyət daşımalıdır. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (bundan sonra "Mülki Məcəllə") 442-ci maddəsi "öhdəliyin icra edilməməsi"nə onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və yaxud da öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) kimi anlayış vermişdir. Hazırkı Podrat Müqaviləsinin 1.1-ci maddəsinə nəzər yetirsək, görürük ki, Podratçı 3 (üç) il ərzində bu Müqavilə üzrə razılaşdırılmış tələblərə cavab verən oteli inşa edərək Sifarişçiyə təhvil verməyi öz üzərinə götürür. Bununla yanaşı, Müqavilənin 2.2-ci maddəsində sözügedən otelin tikilmə mərhələlərinin ardıcıllığı cədvəli qeyd olunmuşdur. Cavabdeh isə nəzərdə tutulan bu mərhələlərin ilkini - ərazinin tikinti üçün hazırlanması və binanın bünövrəsinin tökülməsini lazımınca, düzgün həyata keçirməmiş, cədvəl üzrə digər işlərin isə ümumiyyətlə heç birini icra etməmiş, beləcə işləri İddiaçıya təhvil verməmişdir.

**Qeyd:** "Arqumentlər" başlığında qeyd olunanlar *Styles* hissəsindəki *Heading 2* kimi işarələnməlidir ki, "Mündəricat" indekslənərkən "Tələblər" başlığının alt başlıqları kimi mündəricatda əks olunsun (bu o deməkdir ki, "Faktların təqdimatı", "Arqumentlərin xülaləsi" və digər əsas başlıqlar *Heading 1* kimi işarələnir):




## H. Arbitraja müraciət

22. Bu hissədə arbitraj tribunalından hansı məsələlər üzrə və hansı qaydada qərar qəbul etməsi üçün xahiş etdiyiniz göstərilir.

23. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

**Arbitraja Müraciət**

Yuxarıda qeyd olunan faktiki halları nəzərə alaraq və qeyd edilən hüquq normalarına əsaslanaraq Arbitraj tribunalından

## XAHİŞ EDİRİK:

1. Tərəflər arasındakı mübahisənin kommersiya xarakterli və müqavilə üzrə öhdəliklərin icrası ilə bağlı olan hissəsinə arbitraj məhkəməsində baxılmalı olsa da, dövlətin suveren normativ və inzibati-hüquqi tənzimləmə səlahiyyətinin təfsirini tələb edən hissələri üzrə mübahisənin Arkadiya məhkəmələrində həll edilməli olduğu bəyan edilsin.
2. Cavabdehin HPBS ilə bağlı müqavilə öhdəliklərini pozmadığı bəyan olunsun.
3. Neftin dünya bazar qiymətlərindəki dəyişikliklərin, pandemiyanın və inflyasiyanın fors-major hal kimi deyil, kommersiya riski kimi qiymətləndirilməli olduğu və bu səbəbdən İddiaçının müqavilə öhdəliklərindən azad edilməsinin hüquqi əsasının olmadığı bəyan edilsin.

...